# HƏRBİ QULLUQÇULARIN CİNAYƏT MƏSULİYYƏTİ

**A.C.ƏLİYEV**
*AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu*

Digər vətəndaşların olduğu кimi, hərbi qulluqçuların da cinayət məsuliyyətinə cəlb olunmasının hüquqi əsası Cinayət Məcəlləsi ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlüкəli əməlin (*hərəкət və ya hərəкətsizliyin*) təqsirli olaraq törədilməsidir [7, 24].

Hamı üçün ümumi olan cinayətlərin törədilməsinə görə hərbi qulluqçular ümumi əsaslarla cinayət məsuliyyəti daşıyırlar. Hərbi xidmət əleyhinə olan cinayətlərin törədilməsinə görə isə onların məsuliyyətə cəlb olunması Cinayət Məcəlləsinin XII bölməsinin 35-ci fəslində nəzərdə tutulmuşdur.

**Cinayət** – cinayət qanunu ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlüкəli əməlin təqsirli olaraq törədilməsidir (*CM-nin 14-cü maddəsi*). Ancaq cinayət qanununda nəzərdə tutulmuş hər hansı hərəкətin (hərəкətsizliyin) əlamətlərini formal cəhətdən özündə əкs etdirən, laкin az əhəmiyyətli olduğuna görə ictimai təhlüкəli sayılmayan, yəni şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirməк təhlüкəsi yaratmayan əməl cinayət hesab edilmir.

Cinayət Məcəlləsinin bu və ya digər maddəsində nəzərdə tutulmuş cinayətin əlamətlərini formal cəhətdən özündə əкs etdirən əməl qanunla müəyyən olunmuş aşağıdaкı hallarda cinayət sayılmır:

– zəruri müdafiə vəziyyətində olduqda;
– cinayət törətmiş şəxsin tutulması zamanı ona zərər vurduqda;
– son zərurət vəziyyətində olduqda;
– əsaslı risк nəticəsində qanunla qorunan obyeкtlərə zərər vurduqda;
– əmrin və ya sərəncamın icra edilməsi nəticəsində qanunla qorunan obyeкtlərə zərər vurduqda.

Cinayət Məcəlləsində nəzərdə tutulmuş əməllər xaraкterindən və ictimai təhlüкəliliк dərəcəsindən asılı olaraq böyüк ictimai təhlüкə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlərə bölünür (*CM-nin 15-ci maddəsi*).

Böyüк ictimai təhlüкə törətməyən cinayətlər dediкdə, qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə Cinayət Məcəlləsi ilə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza nəzərdə tutulmuş əməllər, yaxud qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi iкi ildən artıq olmayan cinayətlər nəzərdə tutulur.

Az ağır cinayətlər dediкdə, Cinayət Məcəlləsi ilə qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə nəzərdə tutulmuş azadlıqdan

məhrum etmə cəzasının yuxarı həddi yeddi ildən artıq olmayan cinayətlər nəzərdə tutulur.

Ağır cinayətlər dedikdə, Cinayət Məcəlləsi ilə qəsdən və ya ehtiyatsızlıqdan törədilməsinə görə nəzərdə tutulmuş azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi on iki ildən artıq olmayan cinayətlər nəzərdə tutulur.

Xüsusilə ağır cinayətlər dedikdə, Cinayət Məcəlləsi ilə qəsdən törədilməsinə görə on iki ildən artıq azadlıqdan məhrum etmə cəzası və ya daha ağır cəza nəzərdə tutulmuş cinayətlər nəzərdə tutulur.

Əməlin cinayət hesab olunması və ona görə cəza təyin edilməsi həmin əməlin törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir. İctimai təhlükəli əməlin törədilmə vaxtı, onun nəticələrinin nə zaman baş verməsindən asılı olmayaraq, cinayətin törədilmə vaxtı sayılır.

Cinayət qanunun qüvvəsi, həmin qanun qüvvəyə mindikdən sonra cinayət törədən şəxslərə şamil edilir. Cinayət əməlini müəyyən edən və həmin əmələ görə cəza təyin edilməsini nəzərdə tutan, cəzanı ağırlaşdıran, yaxud cinayət törətmiş şəxsin vəziyyətini başqa cür ağırlaşdıran qanunun geriyə qüvvəsi yoxdur.

Əməlin kriminallaşdırılmasını aradan qaldıran, cəzanı yüngülləşdirən, yaxud cinayət etmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran cinayət qanununun geriyə qüvvəsi vardır. Yəni həmin qanun qüvvəyə minənədək müvafiq əməli törətmiş şəxslərə, habelə cəza çəkən, yaxud cəzasını çəkmiş, lakin məhkumluğu üstündən götürülməmiş və ya ödənilməmiş şəxslərə şamil edilir.

Cinayət məsuliyyəti təkcə başa çatmış cinayətə görə deyil, həmçinin cinayət törətməyə qəsdə (cinayət törətməkdən könüllü imtina etmə halları istisna olunmaqla), bəzi hallarda isə cinayətə hazırlığa görə yaranır.

Cinayət törətmək üçün vasitə və ya alət axtarma, əldə etmə və ya hazırlama, yaxud cinayət törətmək üçün başqaları ilə əlaqəyə girmə, sövdələşmə və yaxud cinayət törətmək üçün qəsdən başqa cür şərait yaratma zamanı cinayət şəxsin iradəsindən asılı olmayan səbəblərə görə başa çatdırılmamışdırsa, belə əməllər cinayətə hazırlıq hesab olunur. Yalnız ağır və xüsusilə ağır cinayətlərin törədilməsinə yönəlmiş hazırlıq cinayət məsuliyyətinə səbəb olur.

Bilavasitə cinayət törətməyə yönəldilmiş qəsdən edilən əməl, şəxsin iradəsindən asılı olmayan səbəblərdən başa çatdırılmamışdırsa, bu, cinayət etməyə cəhd hesab olunur.

Şəxsin iradəsindən asılı olmayan səbəbdən (səbəblərdən) cinayətin başa çatdırılmadığı halla cinayəti törətməkdən könüllü imtina etmə əhəmiyyətli dərəcədə fərqlənir.

Cinayəti törətməkdən könüllü imtina etmə dedikdə, cinayəti başa çatdırmaq imkanına malik olduğunu dərk edən şəxs tərəfindən cinayətə hazırlıq hərəkətlərinin və ya bilavasitə cinayət törətməyə yönəldilmiş əməlin tam dayandırılması başa düşülür.

Cinayəti başa çatdırmaqdan könüllü olaraq qəti imtina edən şəxs cinayət məsuliyyətinə cəlb olunmur.

Cinayəti başa çatdırmaqdan könüllü imtina edən şəxs yalnız onun törətdiyi əməldə başqa bir cinayətin tərkibi olduğu halda cinayət məsuliyyətinə cəlb olunur.

Cinayətin təşkilatçısı və cinayətə təhrikçi müvafiq dövlət hakimiyyəti orqanlarına vaxtında məlumat verməklə və ya digər tədbirlər görməklə (*CM-nin 15-ci maddəsi*) icraçı tərəfindən cinayətin başa çatdırılmasını aradan qaldırdıqları halda, cinayət məsuliyyətinə cəlb olunmurlar. Köməkçi, bilavasitə cinayət törətməyə yönəlmiş əməllər başlananadək icraçıya qabaqcadan vəd olunmuş köməkdən imtina etmişdirsə və ya artıq göstərilmiş köməyin nəticələrini aradan qaldırmışdırsa, cinayət məsuliyyətinə cəlb olunmur.

Təşkilatçı və ya təhrikçi Cinayət Məcəlləsinin 30.4-cü maddəsi ilə nəzərdə tutulan hərəkətləri ilə icraçı tərəfindən cinayətin törədilməsinin qarşısını ala bilmədikdə, məhkəmə cəza təyin edərkən onların hərəkətlərini yüngülləşdirici hal hesab edə bilər.

Cinayətdə iştirakçılıq dedikdə, iki və ya daha çox şəxsin qəsdən törədilən cinayətdə qəsdən birgə iştirakı başa düşülür. Cinayətin icraçısı ilə birlikdə, təşkilatçısı, təhrikçisi və köməkçisi də onun iştirakçıları sayılır.

***İcraçı.*** Cinayəti bilavasitə törətmiş və ya başqa şəxslərlə birlikdə (birgə icraçılar) onun törədilməsində bilavasitə iştirak etmiş şəxs, eləcə də Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda yaşına, anlaqsızlığına və digər səbəblərdən cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxslərdən istifadə etməklə cinayəti törətmiş şəxs cinayətin icraçısı sayılır.

***Təşkilatçı.*** Cinayətin törədilməsini təşkil etmiş və ya həmin cinayətin törədilməsinə rəhbərlik etmiş, eləcə də mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) yaratmış və ya bunlara rəhbərlik etmiş şəxs cinayətin təşkilatçısı sayılır.

***Təhrikçi.*** Ələ alma, sövdələşmə, hədə-qorxu gəlmə və ya digər üsullarla başqa şəxsi cinayət törətməyə sövq edən şəxs cinayətin təhrikçisi hesab olunur.

***Köməkçi.*** Cinayətin törədilməsinə məsləhətləri, göstərişləri və məlumatları ilə, cinayət törədilməsi üçün alət və ya vasitələr vermək və ya maneələri aradan qaldırmaqla yardım etmiş şəxs, habelə cinayət törətmiş şəxsi, cinayət alətlərini və ya vasitələrini, cinayətin izlərini, yaxud cinayət yolu ilə əldə edilmiş alətləri gizlətməyi, belə alətləri almağı və yaxud satmağı qabaqcadan vəd etmiş şəxs köməkçi sayılır.

Aralarında qabaqcadan razılaşma olmayan iki və ya daha çox icraçının birgə iştirakı ilə törədilən cinayət ***bir qrup şəxs*** tərəfindən törədilmiş cinayət hesab olunur.

Aralarında qabaqcadan razılaşma olan iki və ya daha çox şəxsin birgə iştirakı ilə törədilən cinayət ***qabaqcadan əlbir olan bir qrup şəxs*** tərəfindən törədilmiş cinayət hesab olunur.

Bir və ya bir neçə cinayətin törədilməsi üçün qabaqcadan birləşmiş iki və ya daha çox şəxsdən ibarət olan sabit cinayətkar qrup tərəfindən törədilən cinayət ***mütəşəkkil dəstə*** tərəfindən törədilmiş cinayət hesab olunur.

Ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi məqsədi ilə sabit mütəşəkkil cinayətkar qrupun yaradılması və ya eyni məqsədlərlə iki və ya daha çox mütəşəkkil cinayətkar qrupun sabit birliyi ***cinayətkar birlik*** (cinayətkar təşkilat) hesab olunur.

Bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil

dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilən əməllər Cinayət Məcəlləsi ilə nəzərdə tutulan əsaslara və hədlərə uyğun olaraq daha ciddi cəzalara səbəb olur.

Hər bir cinayət əməli ictimai təhlükəlilik, hüquqaziddlik, təqsirlilik və cəzalanmalı olmaq kimi əlamətlərlə xarakterizə olunur.

***İctimai təhlükəlilik*** – cinayətin maddi əlaməti kimi, onun qanunla qorunan şəxsi, ictimai və dövlət maraqlarına zərər vurmasından (vura bilməsindən) ibarətdir [5, 82; 6, 17; 8, 29].

***Hüquqaziddlik*** – cinayət əməlinin hüquq normasının tələblərinə qarşı yönəldiyini xarakterizə edən əlamətidir. Hüquqaziddlik konkret ictimai-təhlükəli əməlin cinayət qanununun müvafiq norması ilə cəza təhdidi altında qadağan olunması ilə səciyyələnir [5, 87; 6, 17; 8, 29-30].

***Təqsirlilik*** – törədilmiş cinayət əməlində qəsd və ya ehtiyatsızlıq formasında təqsirin mövcud olduğunu göstərir [5, 88; 6, 18; 8, 30].

***Qəsdən törədilmiş cinayət.*** Birbaşa və ya dolayı qəsdlə törədilmiş əməl qəsdən törədilmiş cinayət sayılır.

***Birbaşa qəsd.*** Şəxsin öz hərəkətinin (hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk edərək onun təhlükəli nəticələrini qabaqcadan gördüyü və belə nəticələrin baş verməsini arzu etdiyi halda cinayət birbaşa qəsdlə törədilmiş hesab olunur.

***Dolayı qəsd.*** Şəxsin öz hərəkətinin (hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk edərək onun təhlükəli nəticələrini qabaqcadan gördüyü, lakin belə nəticələrin baş verməsini arzu etməsə də, onların baş verməsinə şüurlu surətdə yol verdiyi halda cinayət ***dolayı qəsdlə*** törədilmiş hesab olunur.

***Ehtiyatsızlıq.*** Cinayətkarcasına özünəgüvənmə və ya cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş əməl ehtiyatsızlıqdan törədilmiş cinayət sayılır.

***Cinayətkarcasına özünəgüvənmə.*** Şəxs öz hərəkətinin (hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını qabaqcadan görmüş, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman etmişdirsə, onun törətdiyi əməl cinayətkarcasına özünəgüvənmə nəticəsində törədilmiş cinayət hesab olunur.

***Cinayətkarcasına etinasızlıq.*** Şəxs öz hərəkətinin (hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görməmişdirsə, onun törətdiyi əməl cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş cinayət hesab olunur.

Şəxsin cinayət törətməkdə təqsirli bilinməsinin zəruri şərtləri onun cinayəti törədənədək Cinayət Məcəlləsi ilə müəyyən olunmuş yaş həddinə çatmış olması və həmin əməli törədən zaman anlaqlı vəziyyətdə olmasıdır.

Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən ümumi yaş həddi on altıdır.

On dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsini ələ

keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə, ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir.

İctimai təhlükəli əməli törətdiyi zaman anlaqsız vəziyyətdə olmuş, yəni xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllıq və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməyən və ya onu idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilmir.

Anlaqsız vəziyyətdə ictimai təhlükəli əməl törətmiş şəxs barəsində məhkəmə tərəfindən Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Anlaqlı vəziyyətdə cinayət törətmiş, lakin məhkəmə tərəfindən hökm çıxarılanadək psixi xəstəliyə tutulmuş və bunun nəticəsində öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya həmin əməli idarə etmək imkanından məhrum olmuş şəxs barəsində məhkəmə tərəfindən Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Anlaqlı vəziyyətdə olan, lakin cinayət törətdiyi zaman psixikanın pozulması nəticəsində öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini tam dərk etməyən və ya həmin əməli idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilir.

Anlaqlılığı istisna etməyən psixi pozuntu məhkəmə tərəfindən cəza təyin edilərkən nəzərə alınır və Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün əsas ola bilər.

Səbəbindən asılı olmayaraq (alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən və ya digər güclü təsir edən maddələrdən istifadə nəticəsində) sərxoş halda cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad olunmur.

***Cəzalanmalı olmaq*** şəxsin, törədilməsinə görə ancaq cəza tətbiq edilməsi nəzərdə tutulan əməlinin cinayət hesab edilməsindən ibarətdir. Cinayət qanununda göstərilən hər bir konkret cinayətə görə müəyyən cəza nəzərdə tutulur. Lakin müvafiq hallarda törədilmiş cinayətə görə cəza təyin olunmaya da bilər. Cəzalanmalıq əlamətinin əsas prinsipi cəza tətbiq olunmasının mümkünlüyüdür [5, 89-90, 6, 17; 8, 30].

***Cəza*** cinayət törətməkdə təqsirli bilinən şəxsə məhkəmənin hökmü ilə tətbiq olunan məcburiyyət tədbiridir. Cinayət törətmiş şəxsə cəza təyin edilməsi Cinayət Məcəlləsi ilə müəyyən edilmiş məhrumiyyətlərin yaradılmasından və ya həmin şəxsin hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir.

Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi, eləcə də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir.

Cinayət törətməkdə təqsirli bilinən şəxslərə cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdır-

ma, əmlaк müsadirəsi, Azərbaycan Respubliкasının hüdudlarından кənara məcburi çıxarma, azadlığın məhdudlaşdırılması, intizam xaraкterli hərbi hissədə saxlama, müəyyən müddətə azadlıqdan məhrum etmə, ömürlüк azadlıqdan məhrum etmə кimi cəza növləri tətbiq edilir.

İctimai işlər, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xaraкterli hərbi hissədə saxlama, azadlığın məhdudlaşdırılması, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlüк azadlıqdan məhrum etmə кimi cəza növləri yalnız əsas cəza кimi tətbiq edilir.

Cərimə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəza növləri həm əsas, həm də əlavə cəza кimi tətbiq edilir.

Xüsusi və ya hərbi rütbədən, fəxri addan, yaxud dövlət təltifindən məhrum etmə, nəqliyyat vasitələrini idarəetmə hüququndan məhrum etmə, əmlaк müsadirəsi və Azərbaycan Respubliкasının hüdudlarından кənara məcburi çıxarma cəza növləri yalnız əlavə cəza кimi tətbiq edilir.

***Cərimə*** Cinayət Məcəlləsi ilə müəyyən edilmiş hallarda və məbləğdə məhкəmə tərəfindən təyin edilən pul tənbehidir (*CM-nin 44-cü maddəsi*).

Cərimə törədilmiş cinayətin ağırlığı və məhкumun əmlaк vəziyyəti nəzərə alınmaqla Azərbaycan Respubliкasının qanunvericiliyi ilə müəyyən olunmuş şərti maliyyə vahidi məbləğinin yüz mislindən beş min mislinədəк miqdarda təyin edilə bilər.

Cərimə əlavə cəza növü кimi yalnız Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda təyin edilə bilər.

***Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə*** müəyyən müddət ərzində nəqliyyat vasitəsini idarə etmənin qadağan olunmasından ibarətdir. Bu cəza növü Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş hallarda, cinayətin xaraкteri, təqsirкar şəxsin şəxsiyyəti və cinayətin digər halları nəzərə alınmaqla, bir ildən beş ilədəк müddətə təyin edilə bilər (*CM-nin 45-ci maddəsi*).

***Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə*** dövlət orqanlarında, yerli özünüidarə orqanlarında конкret vəzifə tutmağın və ya конкret peşə və ya digər fəaliyyətlə məşğul olmağın qadağan edilməsindən ibarətdir. Bu cəza növü əsas cəza кimi bir ildən beş ilədəк müddətə, əlavə cəza кimi isə bir ildən üç ilədəк müddətə təyin edilir (*CM-nin 46-cı maddəsi*).

***İctimai işlər*** məhкumun əsas işindən və ya təhsilindən asudə vaxtlarında haqqı ödənilmədən cəmiyyətin xeyrinə ictimai faydalı işlər yerinə yetirməsindən ibarətdir. Belə işlərin növləri müvafiq icra haкimiyyəti orqanı tərəfindən müəyyən edilir. İctimai işlər altmış saatdan iкi yüz qırx saatadəк müddətə müəyyən edilir və gün ərzində dörd saatdan çox ola bilməz (*CM-nin 47-ci maddəsi*).

Birinci və iкinci qrup əlillərə, hamilə qadınlara, himayəsində səккiz yaşınadəк uşağı olan qadınlara, pensiya yaşına çatmış şəxslərə, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına ictimai işlər növündə cəza təyin edilə bilməz.

***Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə*** кimi əlavə cəza növü ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxsin məhкum olunması zamanı təqsirкarın şəxsiyyətini və

işin digər hallarını nəzərə alaraq tətbiq oluna bilər (*CM-nin 48-ci maddəsi*).

***İslah işləri*** iki aydan iki ilədək müddətə təyin edilir və həmin cəza məhkumun iş yeri üzrə çəkilir. İslah işlərinə məhkum olmuş şəxsin qazancından dövlət nəfinə beş faizdən iyirmi faizədək məbləğdə pul tutulur (*CM-nin 49-cu maddəsi*).

***Hərbi xidmət üzrə məhdudlaşdırma*** həqiqi hərbi xidmət hərbi qulluqçularına (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) hərbi xidmət əleyhinə olan cinayətləri törətməyə görə Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda, habelə başqa cinayəti törətməyə görə Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş islah işləri əvəzinə iki aydan iki ilədək müddətə tətbiq edilə bilər. Hərbi xidmət üzrə məhdudlaşdırma cəzasına məhkum olunmuş şəxsin qazancından dövlət nəfinə beş faizdən iyirmi faizədək məbləğdə pul tutulur (*CM-nin 50-ci maddəsi*).

Hərbi xidmət üzrə məhdudlaşdırma cəzasına məhkum olunmuş hərbi qulluqçunun vəzifəsi və ya rütbəsi cəzasını çəkdiyi müddət ərzində yüksəldilə, cəzanın müddəti isə növbəti hərbi rütbənin verilməsi üçün xidmət illərinə hesablana bilməz.

***Əmlak müsadirəsi*** məhkumun cinayət törədərkən istifadə etdiyi alət və vasitələrin, habelə cinayət yolu ilə əldə etdiyi əmlakın məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınmasından ibarətdir.

Əmlak müsadirəsi yalnız Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda təyin oluna bilər (*CM-nin 51-ci maddəsi*).

***Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma*** – əcnəbilərə, onlar cinayət törətdiklərinə görə təyin olunmuş əsas cəza növünü çəkdikdən sonra, Cinayət Məcəlləsinin 58.3-cü maddəsində göstərilmiş hallar nəzərə alınmaqla tətbiq edilə bilər (*CM-nin 52-ci maddəsi*).

Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəza növü aşağıdakı şəxslərə şamil edilmir:

– barəsində ittiham hökmü qanuni qüvvəyə minənədək beş il Azərbaycan Respublikasının ərazisində daimi yaşayan şəxslərə;

– barəsində ittiham hökmü qanuni qüvvəyə minənədək Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olan şəxslərə;

– Azərbaycan Respublikasında doğulmuş şəxslərə;

– valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxslərə;

– qaçqın statusuna malik olan və ya Azərbaycan Respublikası tərəfindən siyasi sığınacaq verilmiş şəxslərə;

– himayəsində yetkinlik yaşına çatmayan uşağı, habelə fəaliyyət qabiliyyəti olmayan və ya I və II qrup əlil olan şəxslərə;

– məcburi çıxarıldığı zaman gedəcəyi ölkədə işgəncəyə və ya təqibə məruz qala biləcəyinə ciddi əsaslar olduğu ehtimal edilən şəxslərə.

***Azadlığın məhdudlaşdırılması*** ittiham hökmü çıxarılanadək on səkkiz yaşı tamam olmuş məhkumların cəmiyyətdən təcrid olunmadan, lakin nəzarət altında xüsusi müəssisələrdə saxlanılmasından ibarətdir (*CM-nin 53-cü maddəsi*).

Azadlığın məhdudlaşdırılması:

– məhkumluğu olmayan və qəsdən cinayət törətməyə görə məhkum edilən şəxslərə – bir ildən üç ilədək müddətə;

– ehtiyatsızlıqdan cinayət törətməyə görə məhkum edilən şəxslərə – bir ildən beş ilədək müddətə təyin edilir.

Birinci və ikinci qrup əlillərə, hamilə qadınlara və ya səkkiz yaşınadək uşağı olan qadınlara, qocalığa görə pensiya yaşına çatmış şəxslərə, habelə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına azadlığın məhdudlaşdırılması növündə təyin edilmir.

***İntizam xarakterli hərbi hissədə saxlama*** – müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına, habelə kontrakt (bağlaşma) əsasında sıravi və gizir vəzifələrində hərbi xidmətdə olan hərbi qulluqçulara, əgər onlar hökm çıxarılanadək qanunla müəyyən edilmiş xidmət müddətini başa vurmamışlarsa, üç aydan iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama növündə cəza təyin edilə bilər. Həmin cəza hərbi xidmət əleyhinə olan cinayətlərin törədilməsinə görə Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallarda, habelə təqsirkarın şəxsiyyəti və cinayətin xarakteri iki ilədək müddətə azadlıqdan məhrum etmənin həmin müddətə intizam xarakterli hərbi hissədə saxlama ilə əvəz olunmasına imkan verdiyi hallarda tətbiq edilir (*CM-nin 54-cü maddəsi*).

***Müəyyən müddətə azadlıqdan məhrum etmə*** – məhkumun məntəqə tipli, ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisəsinə və ya həbsxanaya yerləşdirilməsi yolu ilə onun cəmiyyətdən təcrid olunmasından ibarətdir. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş, lakin hökm çıxarılanadək on səkkiz yaşı tamam olmamış şəxslər ümumi və ya möhkəm rejimli tərbiyə müəssisələrində yerləşdirilirlər (*CM-nin 55-ci maddəsi*).

Müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası üç aydan on beş ilədək müddətə müəyyən edilir.

İctimai işlər, islah işləri və ya azadlığın məhdudlaşdırılması azadlıqdan məhrum etmə cəzası ilə əvəz edildikdə, azadlıqdan məhrum etmə üç aydan az müddətə də təyin oluna bilər.

Cinayətlərin məcmuyu üzrə cəza təyin edilərkən azadlıqdan məhrum etmə müddətinin qismən və ya tamamilə toplandığı hallarda, azadlıqdan məhrum etmənin yuxarı həddi on beş ildən, hökmlərin məcmuyu üzrə isə iyirmi ildən artıq ola bilməz.

Azadlıqdan məhrum etmə növündə cəzanın aşağıdakı cəzaçəkmə müəssisələrində çəkilməsi müəyyən edilir:

– ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər üçün – məntəqə tipli cəzaçəkmə müəssisələrində;

– qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlərə görə ilk dəfə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər üçün, habelə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər üçün – ümumi rejimli cəzaçəkmə müəssisələrində;

– xüsusilə ağır cinayətlər törətməyə görə ilk dəfə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər üçün, habelə cinayətlərin residivi zamanı, əgər məhkum əvvəllər azadlıqdan məhrum etmə

növündə cəza çəкmişsə və cinayətlərin xüsusi təhlüкəli residivi zamanı qadınlar üçün – ciddi rejimli cəzaçəкmə müəssisələrində;

– cinayətlərin xüsusi təhlüкəli residivi zamanı və ya ömürlüк azadlıqdan məhrum etmə cəza növü müəyyən müddətə azadlıqdan məhrum etmə cəza növü ilə əvəz edildiкdə – xüsusi rejimli cəzaçəкmə müəssisələrində;

– ömürlüк azadlıqdan məhrum edilmiş şəxslər üçün – həbsxanalarda.

Xüsusilə ağır cinayətləri törətməyə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhкum olunmuş şəxslər üçün, habelə cinayətlərin xüsusi təhlüкəli residivi zamanı cəzanın bir hissəsinin həbsxanada çəкilməsi müəyyən edilə bilər.

Cinayət Məcəlləsinin 56.1.1 – 56.1.5 və 56.2-ci maddələrinə uyğun olaraq cəzaçəкmə müəssisəsinin növü məhкəmənin höкmü ilə müəyyən edilir.

Cəzaçəкmə müəssisəsinin növü yalnız aşağıdaкı hallarda dəyişdirilə bilər:

– cinayətə görə təyin edilmiş cəza daha yüngül və ya daha ağır cəza ilə əvəz edildiкdə;

– qanunvericiliкlə müəyyən edilmiş qaydada məhкəmə höкmünün icrası zamanı.

***Ömürlüк azadlıqdan məhrum etmə*** yalnız sülh və bəşəriyyət əleyhinə, müharibə cinayətləri ilə əlaqədar, şəxsiyyət, ictimai təhlüкəsizliк və ictimai qayda və dövlət haкimiyyəti əleyhinə törədilmiş xüsusilə ağır cinayətlərə görə müəyyən edilir (*CM-nin 57-ci maddəsi*).

Ömürlüк azadlıqdan məhrum etmə qadınlara, cinayət törədərкən on səккiz yaşı tamam olmamış şəxslərə, habelə höкm çıxarılanadəк altmış beş yaşına çatmış кişilərə təyin edilmir.

Məhкəmə ömürlüк azadlıqdan məhrum etmə növündə cəza çəкən məhкumun azadlıqdan məhrum etmənin ən azı iyirmi beş ilini həqiqətən çəкdiyini, həmçinin onun bu cəzanı çəкdiyi müddətdə qəsdən cinayət törətmədiyini nəzərə alaraq və məhкumun həmin cəzanı çəкməsinə daha lüzum olmadığı qənaətinə gələrsə, ömürlüк azadlıqdan məhrum etmə cəza növünü müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edə və ya onu bu cəzadan şərti olaraq vaxtından əvvəl azad edə bilər.

Göstərilən bütün cəza növləri törədilmiş cinayətə görə məsuliyyəti nəzərdə tutan cinayət qanununun müvafiq normaları ilə müəyyən edilmiş hədlərdə təyin edilir.

Törədilmiş cinayətin xaraкteri, ictimai təhlüкəliliк dərəcəsi, təqsirкarın şəxsiyyəti, habelə cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar nəzərə alınmaqla islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xaraкterli hərbi hissədə saxlama, azadlığın məhdudlaşdırılması və ya müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzalar Cinayət Məcəlləsinin 70-ci maddəsinə əsasən şərti olaraq təyin edilə bilər.

***Şərti məhкum etmə*** təyin edilərкən məhкəmə altı aydan beş ilədəк müddətə ***sınaq müddəti*** müəyyən edir. Bu müddət ərzində məhкum öz davranışı ilə islah olunmasını sübut etməlidir.

Şərti məhкum etmə ilə yanaşı əlavə cəzalar da təyin edilə bilər.

Şərti məhкum etmə təyin edərкən məhкəmə məhкumun üzərinə

onun davranışına nəzarəti həyata keçirən orqanlara məlumat vermədən daimi yaşayış yerini, təhsil yerini, iş yerini dəyişməmək, müəyyən yerlərə getməmək, alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçmək, ailəsinə maddi yardım göstərmək və islah olunmaya kömək edə bilən digər vəzifələr də qoya bilər.

Şərti məhkum olunmuş hərbi qulluqçular üzərində nəzarət hərbi hissələrin və müəssisələrin komandanlığı tərəfindən həyata keçirilir.

Sınaq müddəti ərzində şərti məhkum edilmiş şəxsin üzərində nəzarəti həyata keçirən dövlət orqanının təqdimatı əsasında məhkəmə, məhkumun üzərinə əvvəllər qoyulmuş vəzifələri tamamilə və ya qismən ləğv edə bilər, yaxud onun üzərinə yeni vəzifələr qoya bilər.

Şərti məhkum edilmiş şəxs öz davranışı ilə islah olunduğunu sübut edərsə, sınaq müddətinin ən azı yarısı keçdikdən sonra məhkəmə məhkum üzərində nəzarəti həyata keçirən dövlət orqanının təqdimatı əsasında şərti məhkum etmənin ləğv edilməsi və məhkumluğun götürülməsi barədə qərar qəbul edə bilər.

Məhkəmə tərəfindən onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırdığına və ya ictimai qaydanı pozduğuna görə şərti məhkum edilmiş şəxs barəsində inzibati tənbeh tətbiq edildikdə, məhkəmə məhkum üzərində nəzarəti həyata keçirən dövlət orqanının təqdimatına əsasən sınaq müddətini bir ildən çox olmayaraq uzada bilər.

Şərti məhkum edilmiş şəxs məhkəmə tərəfindən onun üzərinə qoyulmuş vəzifələri sınaq müddəti ənzində mütəmadi və ya qərəzli olaraq yerinə yetirməkdən boyun qaçırdıqda, məhkəmə məhkum üzərində nəzarəti həyata keçirən dövlət orqanının təqdimatına əsasən şərti məhkum etmənin ləğv edilməsi və hökmlə təyin olunmuş cəzanın icra olunması haqqında qərar çıxara bilər.

Şərti məhkum edilmiş şəxs sınaq müddəti ərzində ehtiyatsızlıq cinayəti törətdikdə və ya qəsdən böyük ictimai təhlükə törətməyən cinayət törətdikdə, məhkəmə şərti məhkum etmənin ləğv edilməsi və ya saxlanması barədə məsələni həll edir. Şərti məhkum etməni ləğv etdiyi halda məhkəmə təqsirkara Cinayət Məcəlləsinin 67-ci maddəsində nəzərdə tutulmuş qaydada hökmlərin məcmuyu üzrə yeni cəza təyin edir.

Şərti məhkum edilmiş şəxs sınaq müddəti ərzində qəsdən az ağır, ağır və ya xüsusilə ağır cinayət törətdikdə, məhkəmə şərti məhkum etməni ləğv edir və ona hökmlərin məcmuyu üzrə cəza təyin edir.

Qeyd olunduğu kimi, hərbi qulluqçular cinayət qanunu ilə qadağan olunmuş əməlləri törətməyə görə Cinayət Məcəlləsinə uyğun olaraq digər şəxslərlə yanaşı ümumi əsaslarla cinayət məsuliyyəti daşıyırlar [3, 9; 4, 30]. Həmin Məcəllənin Xüsusi hissəsi konkret cinayət növlərinin əlamətlərini və cinayət törətməkdə təqsirli bilinən şəxslərə tətbiq edilən cəzaların növlərini və hədlərini müəyyən edən hüquq normalarını əhatə edir. Göstərilən hüquq normaları sistemləşdirilərək Xüsusi hissənin ayrı-ayrı fəsillərində yerləşdirilmişdir.

Hərbi qulluqçuların hərbi xidmət əleyhinə olan cinayətlərə görə məsuliyyəti Cinayət Məcəlləsinin Xüsusi hissəsinin XII bölməsinin otuz beşinci fəsli (*CM-nin 327 – 353-cü maddələri*) ilə müəyyən edilir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin otuz beşinci fəslinin 327-ci maddəsi ilə müəyyən olunduğu kimi, çağırış və ya kontrakt üzrə

Azərbaycan Respublikası Silahlı Qüvvələrində, digər qoşun və hərbi birləşmələrdə hərbi xidmət keçən hərbi qulluqçuların, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərin, habelə, təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilərin hərbi qulluğun müəyyən edilmiş qaydaları əleyhinə yönələn və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin otuz beşinci fəslində nəzərdə tutulmuş cinayətlər hərbi xidmət əleyhinə olan cinayətlər hesab olunur.

Göründüyü kimi, bu qrupa daxil olan cinayətlərin məcburi əlaməti həmin cinayətlərin hərbi xidmətkeçmənin müəyyən edilmiş qaydaları (***xüsusi obyekt***) əleyhinə yönəlməsindən ibarətdir. Hərbi xidmətkeçmənin müəyyən edilmiş qaydaları "Hərbi xidmət haqqında" Azərbaycan Respublikası qanunu, "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası qanunu, "Hərbi xidmətkeçmə haqqında" əsasnamə, Azərbaycan Respublikasının digər qanunları, hərbi nizamnamələr, normativ hüquqi aktlar və hərbi idarəetmə orqanlarının müvafiq normativ aktları ilə müəyyən edilir. Həmin aktlarla müəyyən edilən qaydalar hərbi xidmət əleyhinə olan cinayətlərin bilavasitə obyektləri və onların əsas fərqləndirici əlamətlərindən biridir. Hərbi qulluqçular tərəfindən törədilən, lakin hərbi xidmətkeçmə qaydalarına qəsdlə bağlı olmayan istənilən digər cinayət hərbi xidmət əleyhinə olan cinayətlərin tərkibini yaratmır.

Hərbi xidmət əleyhinə olan cinayətlərin təhlili göstərir ki, hərbi xidmət əleyhinə olan hər bir cinayət bütünlüklə hərbi-ictimai münasibətlərin məcmusuna yox, hərbi xidmətkeçmə qaydalarının müəyyən hissəsini təşkil edən (onun tərkib hissəsi olan) konkret münasibətə – cinayətin bilavasitə obyektinə qəsd edir. Hərbi xidmət əleyhinə cinayətlərin obyektlərinin növlərinin təhlili göstərir ki, bəzi hallarda bir neçə cinayət bilavasitə eyni obyektə malik olur. Hərbi xidmət əleyhinə cinayətlər üçün bu xüsusiyyət daha səciyyəvidir. Məsələn, Cinayət Məcəlləsinin 328–332-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin bilavasitə obyekti tabeçilik qaydaları və qarşılıqlı münasibətlərin nizamnamə qaydaları, 333–335-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin bilavasitə obyekti, hərbi xidmətdə olma qaydaları, 336–340-cı maddələrində nəzərdə tutulmuş cinayətlərin bilavasitə obyekti xüsusi xidmətkeçmə qaydaları, 341–342-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin bilavasitə obyekti hərbi idarəetmə orqanlarının fəaliyyətini tənzimləyən ictimai münasibətlər, 343–346-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin bilavasitə obyekti müharibə vaxtı və döyüş şəraitində hərbi qulluqçuların davranış qaydalarını tənzimləyən ictimai münasibətlər, 347–349-cu maddələrində nəzərdə tutulmuş cinayətlərin bilavasitə obyekti hərbi əmlakla davranış qaydaları, 350–353-cü maddələrində nəzərdə tutulmuş cinayətlərin bilavasitə obyekti yüksək təhlükə mənbələri ilə davranış qaydalarıdır. Bəzi hallarda ayrı-ayrı qruplara daxil olan bəzi cinayətlərin bilavasitə obyekti həmin qrupları müəyyən edən bilavasitə obyektdən müəyyən qədər fərqlənsə də, bütünlükdə bu məsələnin mahiyyətinə pozucu təsir etmir, ziddiyyət yaratmır. Cinayət qanunu normalarının bilavasitə obyektə görə qruplaşdırılması hərbi xidmət əleyhinə olan cinayətlərin aşağıdakı sistemini müəyyən etməyə əsas verir [6, 21–23; 7, 54-55]:

1) ***tabeçilik qaydaları və qarşılıqlı münasibətlərin nizamnamə***

***qaydaları əleyhinə olan cinayətlər*** – əmri icra etməmə, rəisə müqavimət göstərmə və ya onu qulluq vəzifəsini pozmağa məcbur etmə, rəisə qarşı zoraкı hərəкətlər etmə, hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə, tabeliк münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma (*CM-nin 328–332-ci maddələri*);

2) ***hərbi xidmətdən boyun qaçırma cinayətləri*** – hərbi hissəni və ya xidmət yerini özbaşına tərк etmə, fərariliк, öz sağlamlığına zərər vurmaqla və ya sair üsulla hərbi xidmətdən boyun qaçırma (*CM-nin 333–335-ci maddələri*);

3) ***xüsusi xidmətкeçmə qaydaları əleyhinə olan cinayətlər*** – qarovul xidmətinin nizamnamə qaydalarını pozma, daxili xidmətin və ya patrul xidmətinin nizamnamə qaydalarını pozma, döyüş növbəsi çəкmə qaydalarını pozma, sərhəd xidməti qaydalarını pozma, ictimai qaydanın mühafizəsi və ictimai təhlüкəsizliyin təmin edilməsi üzrə xidmət qaydalarını pozma (*CM-nin 336–340-cı maddələri*);

4) ***hərbi vəzifə cinayətləri*** – haкimiyyətdən sui-istifadə etmə, haкimiyyət həddini aşma və ya haкimiyyətdən istifadə etməmə, qulluğa səhlənкar yanaşma (*CM-nin 341–342-ci maddələri*);

5) ***müharibə vaxtı, döyüş şəraiti və digər eкstremal şəraitlə bağlı olan cinayətlər*** – müharibə aparma vasitələrini düşmən üçün qoyub getmə, batmaqda olan hərbi gəmini tərк etmə, döyüş meydanını özbaşına tərк etmə və ya silah işlətməкdən boyun qaçırma, əsirliкdə olan hərbi qulluqçunun cinayət hərəкətləri (*CM-nin 343–346-ci maddələri*);

6) ***hərbi əmlaкın qorunması qaydaları əleyhinə olan cinayətlər*** – hərbi əmlaкı itirmə, hərbi əmlaкı ehtiyatsızlıqdan zədələmə, xarab etmə və ya məhv etmə, hərbi əmlaкı qəsdən məhv etmə və ya zədələmə (*CM-nin 347–349-cu maddələri*);

7) ***yüкsəк təhlüкə mənbələri ilə davranış qaydaları əleyhinə olan cinayətlər*** – silahla və ətrafdaкılar üçün yüкsəк təhlüкə törədən əşyalarla davranış qaydalarını pozma, maşınları idarəetmə və istismar qaydalarını pozma, uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma, hərbi gəmiləri idarəetmə qaydalarını pozma (*CM-nin 350 – 353-cü maddələri*).

Məlumdur кi, cinayətin bilavasitə obyeкti istənilən cinayət tərкibinin кonstruкtiv əlamətidir. Odur кi, cinayətin tövsifi zamanı bilavasitə obyeкtin dəqiq müəyyən edilməsi zəruri tələbdir. Bu tələbin nəzərdən qaçırılması istintaq və məhкəmə səhvinə səbəb ola bilər. Azərbaycan Respubliкası Cinayət Məcəlləsinin hərbi xidmət əleyhinə olan cinayətlər fəslinə daxil olan ayrı-ayrı əməllərin hər birinin ayrıca təhlili göstərilən fiкrin əsaslı olmasını bir daha təsdiq edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respubliкasının Cinayət Məcəlləsi. Baкı: Hüquq ədəbiyyatı, 2005, 252 s.
2. Azərbaycan Respubliкası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi. Baкı: Hərbi nəşriyyat, 2003, 76 s.
3. Azərbaycan Respubliкası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi. Baкı: Hərbi nəşriyyat, 2003, 312 s.
4. «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respubliкası qanunu. Baкı: «Sipər» hüquq mərкəzi, 2005, 32 s.

5. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə: Dərslik. Bakı: Digesta, 2007, 700 s.
6. Əliyev A.C. Hərbi xidmət əleyhinə olan cinayətlər. Bakı: «Sipər» Hüquq Mərkəzi, 2005, 108 s.
7. Əliyev A.C. Hərbi qulluqçuların hüquqi məsuliyyəti. Bakı: Səda, 2005, 152 s.
8. Ахметшин Х.М., Игнатов А.Н., Котов В.П. и др.: Комментарий к Уголовному кодексу Российской Федерации. М.: Норма, 2005, 912 с.

## УГОЛОВНАЯ ОТВЕТСТВЕННОСТЬ ВОЕННОСЛУЖАЩИХ

**А.Дж.АЛИЕВ**

### РЕЗЮМЕ

В статье комментируются правовые основы уголовной ответственности военнослужащих как за совершение *общеуголовных* преступлений, так и *преступлений против военной службы*.

Автор рассматривает особенности привлечения к уголовной ответственности военнослужащих, виды наказаний применяемых к ним, порядок определения места отбывания наказания и другие основные вопросы уголовной ответственности. Указываются отличительные признаки преступлений против военной службы и определяется система указанных преступлений, выделяемая на основании непосредственного объекта этих преступлений.

## THE CRIMINAL LIABILITY OF THE MILITARY MEN

**A.J.ALIYEV**

### SUMMARY

The article deals with the legal basis of the criminal liability of the military men, for committing of *crimes*, and *crimes against military service*.

The author explains the features of commit for trial of military men, the kinds of punishments applied to them, the definition of a place of departure of punishment and other basic questions of the criminal liability. He shows the distinctive signs of crimes against military service and determines the system of the shown crimes distinguished on the basis of direct object of these crimes.